*S.İbrahimov. Hacı Molla Məhəmməd Naxçıvaninin "Kəşkülün-nur" əsərində əxlaqi-nəsihətlərin müxtəlifliliyi // Əlyazmalar yanmır. 2021, №2(13), s.11-16*

UOT: 82-3.512.162

**Səbuhi İbrahimov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*
*AMEA-nın Naxçıvan Bölməsinin Əlyazmalar Fondu*
*Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, 76*
*e-mail: s.ibrahimov71@mail.ru*

# HACI MOLLA MƏHƏMMƏD NAXÇIVANİNİN "KƏŞKÜLÜN-NUR" ƏSƏRİNDƏ ƏXLAQİ-NƏSİHƏTLƏRİN MÜXTƏLİFLİLİYİ

**Xülasə**

*Məqalədə Hacı Molla Məhəmməd Naxçıvaninin "Kəşkülün-nur" əsərində əxlaqi-nəsihətlərin müxtəlifliliyi təhlil edilməklə öz əksini tapmış və digər mövzularla bağlı müəyyən istiqamətlər müəyyənləşdirilmişdir. Azərbaycanda orta əsrlərdən rastlaşdığımız tanınmış bəzi klassik şair və yazıçıların əsərləri və bu adda müxtəlif dəyərli əlyazma mətnlərinin olması danılmaz bir həqiqətdir. Bu baxımdan yanaşdığımız XIX əsrin qiymətli əlyazma əsəri olan bu kitab da deyilən faktorları bir daha ortaya çıxarmışdır. Müəllif əsərdə nəinki mövzunun filoloji təhlilini vermiş, həmçinin müxtəlif əxlaqi nəsihətlərin bəzi aspektlərini də dəyərləndirmişdir.*

*Bu araşdırmalar zamanı məlum olmuşdur ki, müəllifin adı çəkilən "Kəşkülün-nur" əsəri indiyə qədər araşdırılmamış və elmi tədqiqata cəlb edilməmişdir. Hacı Molla Məhəmməd Naxçıvaninin bu qiymətli əsəri nəinki Naxçıvan mədəni tarixinin, həmçinin Azərbaycan mətnşünaslıq elminin öyrənilməsi ilə yanaşı, müasir cəmiyyətimiz üçün də çox böyük marağa səbəb olar. Bu baxımdan da onun araşdırılması, təhlil edilməsi, elmi tədqiqinin aparılması olduqca əhəmiyyətlidir.*

***Açar sözlər:*** *Hacı Molla Məhəmməd Naxçıvani, "Kəşkülün-nur", əsər, əxlaqi, nəsihətnamə, kitab, elm.*

## Giriş

XIX əsrin mənəvi xəzinəsi olan əlyazma mətnlərindən biri Hacı Molla Məhəmməd Naxçıvaninin "Kəşkülün-nur" kitabıdır. Kitab iki hissədən ibarətdir. Birinci hissə 188 vərəq olmaqla 376-cı səhifədə bitir. İkinci hissə isə 184 vərəq olmaqla 368 səhifədir. Əsərin yazılış quruluşu da müxtəlifdir. Belə ki, hər bir yarımbaşlıq istər geniş mövzu ətrafında olsun, istərsə də kiçik mövzular ətrafında olsun qalın və iri həriflərlə qara rəngdə yazılmışdır. Yazılan mövzular ətrafında daha geniş məlumat və şərhlər isə vərəqin kənar hissələrində əlavə olaraq qeyd edilmişdir. Bu izahlar onu deməyə əsas verir ki, əsərin məzmunu dərin mənalara əsaslanır. Bu da öz növbəsində mövzuların bəlağət və fəsahət baxımından çox əhəmiyyətli olduğunu bildirir. Əsər üç dildə; Azərbaycan, ərəb və fars dillərində yazılmasına baxmayaraq

mövzular Azərbaycan ədəbi və bədii sənətinin, mədəni həyatının, fəlsəfi dünyagörüşünün, məntiqi təfəkkürünün, dini-əxlaqi-nəsihətlərinin müxtəlifliliyini və xalqımızın milli-mənəvi dəyərlərinin göstəricisi kimi əks olunur. Dil xüsusiyyətləri müxtəlif olsalar belə, məna çalarları xalqımızın adət-ənənələrinə, məişətinə, onun təbiətindən doğan inanclara və gündəlik həyat tərzinə uyğun olaraq nəsihətlərlə zəngindir.

## Azərbaycan ədəbiyyatı tarixində nəsihət deyimlərinə müxtəlif yanaşmalar

Orta əsr nümayəndəsi olan Əbu Bəkr ibn Xosrov əl-Ustadın "Munisnamə" əsərinin II fəslində İmam Əli əleyhissalam oğlu İmam Hüseynə həsr etdiyi "Oğluma nəsihət" şerini vermişdir. Bu şeir bütün Şərqdə ən məşhur "Oğluma nəsihət" şeirlər silsiləsindəndir.

*Xeyirxah məqsədlərə nə qədər tez qayıtsan,*
*Qiyamət günündə bağışlanan olarsan* (1, s. 31).

Bu səpkidə şeirlər bizim ədəbiyyatda VII əsrdə Əbül Abbas əl-Əmədan başlamış Nizami ilə davam etdirilmiş, ta Seyid Əzim Şirvaniyədək gəlib çatmışdır. Nəsirəddin Tusi yazırdı: "Elm sahibi şəfqətli və nəsihət verən olmalıdır" (4, s. 14).

Şah İsmayıl Xətayinin çoxcəhətli poeziyasında da epik əsərlər mühüm yer tutur. Onun "Nəsihətnamə" məsnəvisi və "Dəhnamə" poeması epik şerin qiymətli nümunələridir. "Nəsihətnamə" adından da göründüyü kimi, nəsihətamiz, fəlsəfi poemadır (7).

Əxlaqi-nəsihətlərin müxtəlif prinsip və istiqamətləri Azərbaycanın XVIII-XIX əsrlərdə yaşayıb, yaratmış görkəmli maarifpərvər nümayəndəsi Abbasqulu ağa Bakıxanovun yaradıcılığından da yan keçməmişdir. Onun "Təhzibül-əxlaq"dan sonra ikinci pedaqoji əsəri "Kitabi-nəsihət" və ya "Nəsihətnamə"dir. "Elm və kamalı əldə etməyi hər şeydən daha əziz tut. Çünki hər şeyi onların vasitəsilə əldə edirlər" (6).

## Hacı Molla Məhəmməd Naxçıvani yaradıcılığında nəsihət növlərinin fəlsəfi anlamı

Bu cür əxlaqi-nəsihətlərlə zəngin olan Hacı Molla Məhəmməd Naxçıvaninin "Kəşkülün-nur" əlyazma əsəri də təqdirə layiq bir sahəni əhatə etmişdir. Əsərdə müəllif "Kənzül-Vaizin" kitabında rəvayət olunmuş cənabi Seyyid əs-Sacidin (İmam Zeynəlabidin) əleyhissalamın "Müəzzə ba lüğəti şafiə"sini nəql edərək; - övlad valideyn münasibətləri, ata-ananın haqqı, yoldaşın haqqı, qonşunun haqqı, elm öyrədən müəllimin haqqı, sultanlığın haqqı, insan əzalarının haqqı (əl, ayaq, göz, qulaq, nəfs və s.) mükəmməl şəkildə vermişdir. İşlənən sözlərin və söz birləşmələrinin bəzisi ərəb dilində yazılmasına baxmayaraq cümlələr öz üslubiyyətini qoruyub saxlamışdır.

Əsərdə diqqəti cəlb edən ilk əsas məqamlardan biri də ata-anaya olan münasibətlərin yer almasıdır. İbrətamiz nəsihətlərlə zəngin olan bu göstəricilər övlad-valideyn, valideyn-övlad münasibətlərinin tənzimlənməsini və mehribançılığını təzəhhür etdirir. Ananın haqqının qaytarılmasını qeyri-mümkün hesab edən müəllif bu qənaətdədir ki, bu yalnız Uca Allahın yardımı, köməyi və tövfiqiylə mümkün olar. Çünki ana övladını hansı bürclər altında cariyə əzası ilə saniyə-bəsaniyə, dəqiqə-bədəqiqə onun əzab-əziyyətini çəkməsi sözsüz ki, əvəzedilməzdir. Nəsirəddin Tusinin elmi hesabları ilə desək: "Göyün səkkizinci qatında hərəkət edən ulduzlar on iki hissəyə bölünür. Bu ulduzlar toplusunun hər biri bürc adlanır. Bürclərin hər biri dərəcə adlanan 30 hissəyə, hər dərəcə 60 dəqiqəyə, hər dəqiqə 60 saniyəyə və hər saniyə də salisəyə (saniyənin 1/60 hissəsinə) ayrılır" (3, s. 8). Bu da fəlsəfi cəhətdən

səbrə işarədir ki, hərəkət vüsala meylidir və məhəbbət üçün vacibdir. "Arifin hərəkəti həlak olmaqdır, məhəbbətin sükunu həlak olmaqdır" (2, s. 28). Elə həmin fikir və mülahizələrlə müəllif ana haqqının çətinliklərinin qaytarılmasını əsərdə nəsihətlərin ardı olaraq belə qeyd edir: "Anavın həqqi; Bəs gərək biləsən ki, səni gətirib bir yerə, yəni qarnına ki, heç kəs, heç kəsi o yerdə götürüb saxlamaz. Əta edib sənə öz qəlbinin meyvəsini, belə meyvə ki, heç kəs, heç kəsə verməz. Saxlayıb səni cəme cəvarehi-əzası ilə (cariyə əzası ilə) bak (qorxu, xof) etməyib. Özü ac qalıb, sənə yedirdib. Susuz olub, səni sirab edib. Üryan qalıb, səni geyindirib. Özü gün qabağında qalıb, səni kölgə yerdə saxlayıb. Yuxudan bidar (oyanıb) olub səndən ötrü. Səni soyuxdan və istidən mühafiz edib tainki sən ona himayət və məhəbbət edəsən. Bəs həqiqətən sən anavın şükrünə taqət gətirmərsən məgər Allahın mədədiylə və tövfiqiylə (Allahın yardımı ilə, Tanrının köməyi ilə)" (5, s. 273-274).

Cəlisun (yoldaşın) haqqı. "Yəni o şəxsin həqqi ki, sənin ilə məən (birlikdə) bir məclisə gedə, rəvadır ki, ona mülaimət edəsən. Ədalət və insaf edəsən danışıqlarının cavabında. Məclisdən durmayasan məgər onun izniylə. Əgər bir nəfər gəlib sənin yanında əyləşsə, caizdir ona ki, durub gedə sənin iznin olmamış. Nisyan (yaddan çıxarma, unutma) edəsən gərək onun ləğzişlərini (sürüşmə) və onun yaxşı əməllərini həmişə xatirində saxlayasan. Eşitməyəsən ondan məgər xeyirləri. Yəni əgər səni bəd əmələ vadar eyləyə qəbul etməyəsən" (5, s. 274).

Müəllif qonşunun bir-birinə haqqını izah edərək yazır: "Həmsayənin həqqi odur ki, ğaib olanda onun əyalini və malını hifz edəsən. Hazır olanda ehtiram və ikram edəsən. Məzlum olanda ianət (kömək, yardım) edəsən. Zahirdə və xəlvətdə xəyalıva qoymayasan ki, onun əyalına və övladına baxasan. Əgər ondan bir bəd əməl görsən məstur edəsən (örtülü saxlayasan). Əgər səndən nəsihət qəbul edən olsa, nəsihət edəsən o zadlarda ki, səniılən onun arasında ola. Şiddət vaxtında (ağır vəziyyətində) onu yalquz qoymayasan və ləğzişini qəbul edəsən. Günah və təqsirini əfv edəsən. Yaxşılıqilən və kəramətilən rəftar edəsən" (5, s. 274).

Sonra müəllif nəsihətləri ardıcıl olaraq bu qayda da davam etdirir: "Müsahibin və yoldaşın həqqi odur ki, müsahibət edəsən təfəzzül (mərhəmət etmə) və insafilən. Əziz tutasan onu belə ki, o səni əziz tutar. Qoymayasan səbqət (ötüb keçmə, ötmə) edə sənin üçün kərəmə və ehsana. Hər vaxtı ki, o səbqət eyləyə, sən də ona kərəm və ehsan et. Dost tut onu belə ki, o səni dost tutar. Məne eylə onu məsiyyətdən və qoyma günaha tərəf meyl eyləsin. Onun üçün rəhmət ol və əzab olma. Yəni bir parə əməllərə vadar eylə ki, bais olasan onun Behiştə getməyinə, nəinki cəhənnəmə" (5, s, 274).

"Şərikin həqqi odur ki, hər gah ğaib ola kifayət verəsən onun işlərinə və əgər hazır ola müraat (riayət etmə, gözləmə) edəsən ona və ümuri-şərakətdə (şərikli işlərdə) onun hökmü olmamış, hökm etməyəsən. Ona məsləhət etməmiş bir iş görməyəsən. Onun malını hifz edəsən və xəyanət etməyəsən böyük həqlərdə, ya kiçik həqlərində. Bəs həqiqətən ki, Allahın əli şəriklərin əlinin üstündədir. Madami ki, bir-birlərinə xəyanət etməyələr" (5, s. 274-275).

Həmçinin müəllif mal-dövlətin, dünya malının haqqını ibrətamiz nəsihətlərlə izah edir: "Sənin mal-dövlətivin həqqi odur ki, onu kəsb və əxz etməyəsən məgər halaldan. İnfaq və məsrəf etməyəsən məgər məhəlli şəriyədə. İxtiyar etməyəsən öz nəfsivə məgər o kəslərə infaq və bəzl (bağışlamağı, verməyi) etməyi ki, sənə həmd və səna edəllər. Yəni sənin infaq (sərf etmə, xərcləmə) və ehsanının həqqini fəramuş (yaddan çıxarmaq) eyləməzlər, bəlkə izhara (aşkara) və duai-xeyir sənin xüsusunda edəllər. Bəs o noe əşxasə (o növ şəxslərə, o növ adamlara) infaq və ehsan eylə. Lakin bu infaq və ehsanda öz Pərvərdigarıva itaət eyləməyi mənzur tut (nəzərdə tut) və bəxil (xəsis, paxıl; simic) eyləmə. Bəs əyləşərsən həsrət və nədamətan (peşman olan halda) və günahilən" (5, s. 275).

"Ağasından tələbdar olan əşxasların həqqi budur ki, əgər pərişan-hal olasan və qadir olmayasan onun tələbini əda və karsazlıq (işin öhdəsindən gəlmək) etməyə. Bəs gərək o

sahibi-tələbi (tələb sahibini) göyçək sözlər ilə özündən qaytarasan və lütf və mərhəmət edib mülaim və münasib cavablar bəyan edəsən" (5, s. 275).

Müəllif əsəri zənginləşdirən sahələrdən biri olan qoca, yaşlı və uzunömrlü insanların haqqının dəyərindən danışır və nəsihətin dərinliklərindən bəhs edir. "Amma müsinn (qoca) və müəmmər (uzunömrlü) olan şəxsin həqqi odur ki, ona tövfir (fərq), təbcil (ucaltma, təriflәmə), təzim və təkrim edəsən sinnin (yaşın) böyüklügü səbəbinə. Və səndən müqəddəm (əvvəl) islama müşərrəf olub təkalif şəriyyəni səndən qabaq əmələ gətirməyi cəhətinə. Tərk edəsən onunilən müqabil durub müxasimə (ədavət) etməyi. Yol gedəndə onun qabağına düşməyəsən. Bəd cəhlibazı və nadanı ona nişan verməyəsən. Əgər sənin hüzurunda ondan bir cahilanə (cahilcəsinə) əməl sadir olsa mütəhəmmil (dözən) olub əvəz etməyəsən, bəlkə ehtiram və ikram edəsən onun həqqi islamı xatirinə" (5, s. 275).

Nəsihətnamələrin əksəriyyətində nəsihət əvvəlcə kiçik yaşlı uşaqlara verilir və sonra ibrətamiz kəlamlarla ümumbəşər övladı üçün tərif edilir. Bu nəsihətlərdən yan keçməyən H.M.Naxçıvani səğir və kiçiklərə verilən təlimi yüksək qiymətləndirərək yazır: "Səğir və köçəklərin həqqi budur ki, ona rəhm edəsən və bilməyən zadlarını təlim edəsən. Təqsirini əfv edəsən" (5, s. 275).

"Sailin həqqi odur ki, onun hacətini qədərincə ona əta edəsən" (5, s.275).

"Amma məsulin (cavabdeh) həqqi odur ki, hər zadi ki, sənə əta eylədi qəbul edəsən, tərif və səna ilə Allaha şükr edəsən. Əgər səni məne eylədi bəs üzrünü qəbula qoyasan" (5, s. 275).

"O şəxsin həqqi ki, səni şad eyləyə budur ki, əvvələn Allaha şükr və həmd edəsən. Bəəd əz an (ondan sonra) o şad eyləyənə tərif və tövsiflə (səciyələndirməklə) dua edəsən" (5, s. 275).

"Amma millətin əhlinin həqqi odur ki, qəlbində onların səlamətliyini tutasan və rəhmət edəsən onların günahkarlarına və müqəssirləri ilə müdara və məlaimət edəsən. Təlif edəsən onların qəlblərini və tələbe-islah edəsən onlardan ötrü və onların möhsünlərinə şükr edəsən. İza (əziyyət vermə, incitmə) azari (xəstəliyi) onlardan kəff (dəf etmə) edəsən və dost tutasan onlardan ötrü o zadı ki, özündən ötrü dost tutarsan. Onların böyüklərini ata mənzilәsində və cavanlarını qardaş mənzilәsində, pirə zənənlərini ana mənzilәsində və səğirlərini övlad mənzilәsində tutasan" (5, s. 275).

"Əhli-zimmənin (himayəndə olan adam) həqqi odur ki, qəbul edəsən onlardan o zadı ki, Allah-Təala onlardan qəbul edib. Və onlara zülm eyləməyəsən o zadda ki, Allah-Təala onlar üçün fövr (tez) edib - yəni çox nemət və övlad əta edib öz əhdiyəsinə" (5, s. 275).

## Nəticə

*Güman edirik ki, tədqiqata cəlb edilən bu sahələr bu günkü gənc nəslin maariflənməsinə böyük bir töhfə olmaqla yanaşı, gələcək nəslin saf və sağlam yetişməsinə sanki bir zəmin yaradacaq. Məhz bu baxımdan da araşdırdığımız məntiqi dəlillərin nəticəsi kimi belə qənaətə gəlmək olar ki, Hacı Molla Məhəmməd Naxçıvani bu əxlaqi-nəsihətləri "Kəşkülün-nur" kitabında verməklə öz dövrünün ictimai-fikir mühitini saflaşdırmaqla, milli-mənəvi dəyərlərin qorunmasını təmin etmiş və zənginləşdirmişdir. Əsərdə verilən maarifləndirici aspektlər müəllifin elmi-fəlsəfi dünyagörüşünün başlıca amillərindəndir. Zəngin bilik və bacarığa malik olan H.M.Naxçıvani digər əsərləri ilə yanaşı bu əsərdə də ibrətamiz nəsihətlərə yer ayırmış və yüksək ədəbi-bədii yaradıcılığını bir daha sübuta yetirmişdir.*

**Ədəbiyyat siyahısı:**


1. Əbu Bəkr ibn Xosrov əl-Ustad. Munisnamə (tərcümə edən: f.ü.f.d. İbrahimov S.). Bakı: AzTV, 2008, 143 s.
2. Xacə Nəsirəddin Tusi. Övsafül-əşraf (Şərafət sahiblərinin vəsfi). (Fars dilindən tətcümə edən: Rauf Şeyxzamanlı). Bakı: Nurlan, 2002. 34 s.
3. Xacə Nəsirəddin Tusi. Si fəsl (Otuz fəsil). (Fars dilindən tətcümə edən: Kamal Abdullayev).Bakı: Nurlan, 2002. 30 s.
4. Xacə Nəsirəddin Tusi. Adabül-mütəəllimin (Tələbəlik mədəniyyəti). (Ərəb dilindən tətcümə edən və ön sözün müəllifi: Kamandar Şərifli). Bakı: Nurlan, 2002. 20 s.
5. نخجوانی حاج ملا محمّد, کشکول النور , 1312 ه.ق. 560 ص
6. https://az.wikipedia.org/wiki/%C5%9Eah_%C4%B0smay%C4%B1l_X%C9%99tai
7. https://edebiyyat.ucoz.com/index/0-54


**Sabuhi Ibrahimov**

**Diversity of moral advice in Haji Molla Mahammad Nakhchivani's work "Kashkulun-nur"**


The article reflects the diversity of moral advice in Haji Molla Mahammad Nakhchivani's work "Kashkulun-nur" and identifies certain areas related to other topics. It is an undeniable fact that we have the works of some famous classical poets and writers from the Middle Ages in Azerbaijan and various valuable manuscripts under this name. From this point of view, this book, which is a valuable manuscript of the 19th century, has once again revealed the so-called factors. In the work, the author not only gave a philological analysis of the subject, but also evaluated some aspects of various moral advice.

During these researches, it was found out that the author's work “Kashkulun-nur” has not been studied yet and has not been involved in scientific research. This valuable work of Haji Molla Mahammad Nakhchivani will be of great interest not only for the study of the cultural history of Nakhchivan, but also for the study of Azerbaijani textual science, as well as for our modern society. From this point of view, its research, analysis and scientific research are very important.


***Key words:*** *Haji Molla Mahammad Nakhchivani, “Kashkulun-nur”, work, morality, advice, book, science.*

**Сабухи Ибрагимов**

**Разнообразие нравоучений в произведении Гаджи Моллы Мухаммеда Нахчывани "Кашкулун-нур"**


В статье анализировалось разнообразие нравоучений в произведении Гаджи Молла Мухаммеда Нахчывани “Кашкулун-нур” и были определены некоторые направления, связанные с другими темами. Неоспоримым фактом является то, что под этим названием в Азербайджане существуют произведения некоторых известных поэтов-классиков и писателей средневековья и различные ценные рукописи. С этой точки зрения, эта книга, которая является ценной рукописью XIX века, еще раз выявила так называемые факторы. Автор не только дал в работе филологический анализ темы, но и оценил некоторые аспекты различных нравственных наставлений.

В ходе этих исследований было установлено, что упомянутая работа автора до сих пор не не была привлечена к научным исследованиям. Этот ценный труд Гаджи Моллы Мухаммеда Нахчывани будет представлять большой интерес не только для изучения истории культуры Нахчывана, но и для изучения азербайджанского текстоведения, а также для нашего современного общества. В связи с этим крайне важно провести его исследование, анализ и научное исследование.

***Ключевые слова:*** *Хаджи Молла Мохаммад Нахчывани, «Кашкулун-нур», труд, нравственность, советы, книга, наука.*

AMEA-nın müxbir üzvü, filologiya üzrə elmlər doktoru,
professor **Əbülfəz Quliyev** tərəfindən çapa tövsiyə olunmuşdur.